Azərbaycan Respublikası
Mərkəzi Bankı İdarə Heyətinin
“07” mart 2024-cü il tarixli
qərarı ilə təsdiq edilmişdir
Protokol № 11

# AZƏRBAYCAN RESPUBLİKASI MƏRKƏZİ BANKININ TƏHLÜKƏSİZLİK DEPARTAMENTİ HAQQINDA

# Ə S A S N A M Ə

**BAKI-2024**

## 1. ÜMUMİ MÜDDƏALAR

1.1. Azərbaycan Respublikası Mərkəzi Bankının Təhlükəsizlik departamenti Azərbaycan Respublikası Mərkəzi Bankının (bundan sonra – Mərkəzi Bank) mərkəzi aparatının struktur bölməsidir.

1.2. Təhlükəsizlik departamenti öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında", "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının qanunlarını, Mərkəzi Bankın normativ xarakterli aktlarını, İdarə Heyətinin və daxili komitələrin qərarlarını, Mərkəzi Bank üzrə əmrləri, sərəncamları və bu Əsasnaməni rəhbər tutur.

1.3. Departament bu Əsasnamə ilə müəyyən olunmuş funksiyaların yerinə yetirilməsi prosesində Mərkəzi Bankın digər struktur bölmələri, qurumları və Azərbaycan Respublikasının müvafiq dövlət orqanları ilə fəaliyyətini əlaqələndirir.

1.4. Aparılan əməliyyatların sənədləşdirilməsi üçün departament Mərkəzi Bankın və departamentin adı həkk olunmuş müvafiq ştamplara malikdir.

## 2. DEPARTAMENTİN FƏALİYYƏTİNİN ƏSAS MƏQSƏDİ

Təhlükəsizlik departamentinin əsas məqsədi Mərkəzi Bankın məxfi kargüzarlıq işinin təşkilindən, insan və maddi resurslarının təhlükəsizliyinin təmin edilməsindən ibarətdir.

## 3. DEPARTAMENTİN ƏSAS FUNKSİYALARI

Departamentin əsas funksiyaları aşağıdakılardır:

3.1. Mərkəzi Bankın və onun ərazi idarələrinin inzibati binalarında mühafizə və buraxılış rejiminin təşkil edilməsi, təhlükəsizlik sistemlərinin etibarlı fəaliyyətinin təmin edilməsi;

3.2. Mərkəzi Bankın ərazi idarələrinə pul və qiymətlilərin daşınmasının təmin edilməsi;

3.3. pul və qiymətlilərin daşınmasında təhlükəsizliyin təmin edilməsi;

3.4. Mərkəzi Bankın nağd pulla əməliyyatlar aparılan xəzinə, kassa və emal sahələrində mühafizə və buraxılış rejiminin təşkil edilməsi, təhlükəsizlik sistemlərinin etibarlı fəaliyyətinin təmin edilməsi;

3.5. problemli aktivlərlə əlaqədar struktur bölmələrlə birgə işlərin aparılması;

3.6. dövlət sirrinə aid sənədlərlə işin təşkili və müvafiq məxfilik rejiminə riayət olunmasına nəzarət edilməsi;

3.7. fövqəladə hallar zamanı Mərkəzi Bankın fəaliyyətinin davamlılığını təmin edəcək tədbirlərin görülməsi, mülki müdafiə tədbirlərinin planlaşdırılması və həyata keçirilməsinin təmin edilməsi;

3.8. Mərkəzi Bankın ərazi idarələrində fəaliyyət göstərən Təhlükəsizlik qruplarının işinin təşkili və əlaqələndirilməsi;

3.9. funksional fəaliyyət istiqamətləri üzrə reqlament sənədlərin hazırlanması və təqdim edilməsi;

3.10. Mərkəzi Bankın inzibati binalarından istifadənin səmərəliliyinin artırılması, əməkdaşların iş şəraitinin yaxşılaşdırılması, sağlam və təhlükəsiz əmək şəraitinin təmin edilməsi, maddi-texniki bazanın yaxşılaşdırılması ilə bağlı Mərkəzi Bankın rəhbərliyinə təkliflərin təqdim edilməsi;

3.11. Departmentin büdcə layihəsinin hazırlanması və icrasının təmin edilməsi;

3.12. Departamentə aidiyyəti üzrə daxil olan müraciətlərə baxılması, məktub və sorğulara cavabların hazırlanması;

3.13. rəhbərliyin tapşırıqlarına uyğun olaraq Departamentin fəaliyyət istiqamətləri üzrə digər işlərin yerinə yetirilməsi.

## 4. DEPARTAMENTİN TƏŞKİLATİ STRUKTURU VƏ İDARƏ OLUNMASI

4.1. Departamentin təşkilati strukturu aşağıdakı bölmələrdən ibarətdir:

4.1.1. Ümumi təhlükəsizlik şöbəsi;

4.1.2. Pul və qiymətlilərin daşınması şöbəsi;

4.1.3. Pul və qiymətlilərin daşınmasında təhlükəsizliyin təmin edilməsi şöbəsi;

4.1.4. Problemli aktivlərlə iş şöbəsi.

4.2. Departamentə direktor rəhbərlik edir. Departament direktoru işdə olmadıqda onun səlahiyyətlərini direktor müavini (olduqda) həyata keçirir, bu şərtlə ki, rəhbərlik tərəfindən direktor vəzifəsinin icrası şöbə rəislərindən birinə və ya digər şəxsə həvalə edilməsin.

4.3. Departamentin nomenklatur vəzifəli şəxsləri Mərkəzi Bankın İdarə Heyəti tərəfindən və ya İdarə Heyətinin müəyyən etdiyi qaydada vəzifəyə təyin edilir və vəzifədən azad olunurlar.

4.4. Təhlükəsizlik departamentinə əvəzçiliklə işə qəbul qadağandır.

## 5. DEPARTAMENTİN İŞİNİN TƏŞKİLİ

**5.1. Ümumi təhlükəsizlik şöbəsi:**

5.1.1. Mərkəzi Bankın inzibati binasına elektron və mexaniki buraxılış sistemlərinin etibarlı fəaliyyətini təmin edir, buraxılış nəzarət sistemindən texniki vasitələrlə alınmış məlumatları təhlil edir;

5.1.2. buraxılış rejimi üzrə hüquq-mühafizə orqanları ilə qarşılıqlı fəaliyyəti əlaqələndirir, inzibati binanın mühafizəsini təşkil edir;

5.1.3. video-müşahidə sistemi vasitəsilə fasiləsiz olaraq Mərkəzi Bank və ona məxsus ərazini müşahidə edir və alınan məlumatların təhlilini aparır;

5.1.4. Mərkəzi Bankın ərazisinə silah və partlayıcı maddələrin keçirilməsinin qarşısını alır;

5.1.5. bütün əməkdaşlar tərəfindən buraxılış rejiminə riayət olunmasına nəzarət edir, mümkün rejim pozuntuları faktlarını müəyyən etmək üçün yoxlamalar keçirir;

5.1.6. video-müşahidə və digər vasitələrlə banka məxsus maddi resursların qorunmasına nəzarəti həyata keçirir;

5.1.7. mülki müdafiənin vəziyyəti barədə dövri hesabatlar hazırlayır;

5.1.8. Mərkəzi Bankın rəhbər heyəti ilə mülki müdafiə üzrə nəzəri və əməli təlimlər keçirir, mülki müdafiə məsələləri üzrə fəaliyyət planını və işçilər üçün metodiki tövsiyələr hazırlayır;

5.1.9. Mərkəzi Bankın ərazi idarələrinin yenidən qurulması layihələrində iştirak edir, təhlükəsizlik sistemlərinin və maddi-texniki bazanın yaradılması üzrə təkliflər verir, Təhlükəsizlik qrupunun işinin təşkilində nəzəri və praktik köməkliklər göstərir, əməkdaşların peşəkar hazırlıqlarının artırılması üçün tədbirlər görür;

5.1.10. Mərkəzi Bankın Xəzinə departamentinin nağd pulla əməliyyatlar aparılan sahələrinə buraxılışı daxili reqlament sənədlərinə uyğun olaraq təşkil və təmin edir;

5.1.11. video-müşahidə nəzarəti vasitəsilə tədavüldən çıxarılmış pul nişanlarının məhv edilməsində təhlükəsizliyi təmin edir, mümkün təlimat pozuntuları barəsində bank rəhbərliyini məlumatlandırır;

5.1.12. əməkdaşların və təmir, yoxlama, təlim və s. ilə bağlı nağd pulla əməliyyat aparılan sahələrə buraxılmış kənar şəxslərin rejim, buraxılış və daxili intizam qaydalarına riayət etmələrinə nəzarəti həyata keçirir;

5.1.13. xəzinə, kassa və emal otaqlarına (təmir, yoxlama, təlim və s. ilə bağlı) daxil olan kənar şəxslərin qeydiyyatını aparır, onların aidiyyəti departamentin əməkdaşları tərəfindən müşayiət olunmalarına nəzarət edir;

5.1.14. kassa əməliyyatlarının aparılması üçün banka gəlmiş müştərilərin hərəkət və fəaliyyətlərinə nəzarət edir, yarana biləcək mümkün insidentlərin qarşısını almaq məqsədilə qabaqlayıcı tədbirlər görür;

5.1.15. nağd pulla əməliyyatlar aparılan sahələrdə vizual və ya monitor vasitəsi ilə müəyyən edilmiş şübhəli halların araşdırılması məqsədilə aidiyyəti struktur vahidlərinin rəhbərlərindən müvafiq sənədləri və uyğunsuzluq protokollarını əldə edir və təhlillər aparır;

5.1.16. nağd pulla əməliyyatlar aparan struktur vahidlərinin rəhbərlərinin müraciətləri və təqdim etdikləri uyğunsuzluq protokolları əsasında təhlill və araşdırmalar aparır, nəticələri barədə departament rəhbərliyinə məlumat verir;

5.1.17. kassa əməliyyatlarının aparılmasına nəzarətin daha da təkmilləşdirilməsi və istifadədə olan texniki vasitələrin və avadanlıqların fəaliyyətinin fasiləsizliyinin təmin edilməsi məqsədilə departament rəhbərliyi qarşısında qabaqlayıcı təkliflərlə çıxış edir;

5.1.18. kassa əməliyyatlarının aparılmasına nəzarətin fəaliyyəti barədə dövri, iş prosesində müəyyən edilmiş şübhəli hallar barədə isə dərhal departament rəhbərliyinə hesabat təqdim edir;

5.1.19. nağd pulla əməliyyatların və xəzinədə olan qiymətlilərin təhlükəsizliyinin təmin olunması ilə bağlı rəhbərliyin digər  tapşırıqlarını yerinə yetirir;

5.1.20. Mərkəzi Bankda çalışan işçilər üçün iş vaxtı təhlükəsiz və sağlam şəraitdə işləmək hüququnun, əmək qanunvericiliyi ilə müəyyən edilmiş əmək şəraitinin xüsusiyyətlərinin və digər normaların tətbiqinin təmin edilməsinə, o cümlədən bankın əmlakına və işçilərinə ziyan verilməsinin qarşısının alınmasına yönəldilmiş tədbirlərlə bağlı Mərkəzi Bankın rəhbərliyinə təkliflər təqdim edir;

5.1.21. rəhbərliyin tapşırıqlarına uyğun olaraq fəaliyyət istiqamətləri üzrə digər işləri yerinə yetirir.

**5.2. Pul və qiymətlilərin daşınması şöbəsi:**

5.2.1. pul nişanlarının və digər qiymətlilərin təhlükəsiz daşınmasını tənzimləyən qaydaları hazırlayır;

5.2.2. ölkə xaricində istehsal olunmuş milli pul nişanlarının, xarici valyutanın və digər qiymətlilərin Mərkəzi Banka daşınmasını təmin edir;

5.2.3.  pul nişanlarının və digər qiymətlilərin ölkə xaricinə göndərilməsi zamanı qiymətli və digər yüklərin təyinat yerlərinə daşınmasını təmin edir;

5.2.4. pul nişanlarının və digər qiymətlilərin Mərkəzi Bankın xəzinələri arasında daşınmasını təşkil edir;

5.2.5. səyyar kassa xidməti çərçivəsində pul nişanlarının təsərrüfat subyektlərinə çatdırılmasını təşkil edir;

5.2.6. xidməti silahların təhlükəsiz saxlanması, istifadəsi və uçotunu təşkil edir;

5.2.7. daşınmaların həyata keçirilməsi üzrə maddi texniki bazanın yaradılması ilə əlaqədar təklifləri hazırlayır;

5.2.8. nağd pul və digər qiymətlilərin daşınması sahəsində müvafiq qiymətləndirmələrin aparılmasını və monitorinqlərin keçirilməsini təmin edir;

5.2.9. nağd pul və digər qiymətlilərin daşınması sahəsində analitik və statistik hesabatların, arayışların hazırlanmasını, eləcə də müvafiq sorğuların aparılmasını və rəhbərliyə təkliflərin hazırlanmasını həyata keçirir;

5.2.10. daşınmaların effektivliyinin və səmərəliliyinin artırılması və risklərin azaldılması istiqamətində aparıcı beynəlxalq təcrübənin öyrənilməsi və müasir texnologiyaların tətbiqi üzrə təkliflərin verilməsini təmin edir;

5.2.11. nağd pul və digər qiymətlilərin daşınması sahəsində müvafiq dövlət orqanları və beynəlxalq təşkilatlarla əməkdaşlıq edir;

5.2.12. şöbənin əməkdaşlarının peşəkarlıq səviyyəsinin və fiziki hazırlığının artırılması istiqamətində müvafiq məşğələlərin və məşqlərin keçirilməsini təşkil edir;

5.2.13. zəruri hallarda dövlət qurumları və təşkilatları üçün qiymətlilərin daşınmasında köməklik göstərir;

5.2.14. rəhbərliyin tapşırıqlarına uyğun olaraq fəaliyyət istiqamətləri üzrə digər işləri yerinə yetirir.

**5.3. Pul və qiymətlilərin daşınmasında təhlükəsizliyin təmin edilməsi şöbəsi:**

5.3.1. hüquqi aktlara müvafiq olaraq pul və qiymətlilərin daşınmasında, habelə şəhərdaxili "Səyyar kassa" xidmətinin yerinə yetirilməsində təhlükəsizliyi təmin edir;

5.3.2. pul və qiymətlilərin daşınması qaydalarını tənzimləyən hüquqi aktların hazırlanmasında iştirak edir, müvafiq təkliflər verir;

5.3.3. daşınmaların təhlükəsiz həyata keçirilməsi üçün mövcud maddi-texniki bazadan səmərəli istifadəni təmin edir, onun daha da təkmilləşdirilməsi üçün təkliflər verir;

5.3.4. rəhbərliyin tapşırıqlarına uyğun olaraq fəaliyyət istiqamətləri üzrə digər işləri yerinə yetirir.

**5.4. Problemli aktivlərlə iş şöbəsi:**

5.4.1. problemli aktivlərlə bağlı girov (ipoteka) predmetlərinə tutmanın yönəldilməsi və realizasiyası proseslərində iştirak edir;

5.4.2. problemli aktivlərin bərpası ilə bağlı məhkəmədənkənar qaydada danışıqlarda və müvafiq tədbirlərin görülməsində iştirak edir;

5.4.3. problemli aktivlər və girov əmlakları ilə iş üzrə metodologiya və prosedurların hazırlanmasında iştirak edir;

5.4.4. problemli aktivlər və girovlarla apardığı iş barədə arayış və hesabatlar hazırlayır;

5.4.5. rəhbərliyin tapşırıqlarına uyğun olaraq fəaliyyət istiqamətləri üzrə digər işləri yerinə yetirir.

## 6. YEKUN MÜDDƏLAR

6.1. Bu Əsasnamə təsdiq olunduğu gündən qüvvəyə minir.

6.2. Bu Əsasnamə qüvvəyə mindiyi gündən Mərkəzi Bankın İdarə Heyətinin 07 sentyabr 2022-ci il tarixli qərarı ilə (protokol №48) təsdiq edilmiş "Azərbaycan Respublikasının Mərkəzi Bankının Təhlükəsizlik departamenti haqqında Əsasnamə" ləğv edilir.

**Mərkəzi Bankın sədri** **Taleh Kazımov**

R.Məlikova

E.Məmmədov

N.Quliyev